# Zaqatala: Meliorasiya aqrar sahənin dayağıdır

Müstəqillik illərində əldə olunan uğurlarda melioratorların da əməyi çoxdur. Onlar respublikanın iqtisadiyyatının, xüsusən də qeyri-neft sektorunun mühüm qolu olan kənd təsərrüfatının dinamik inkişafında qarşıya qoyulan bütün vəzifələrin layiqincə icra olunmasına həmişə vicdanlarının səsi ilə cavab verirlər. Aqrar sahənin hansı istiqamətinə nəzər salsan orada meliorator əməyinin ürəkaçan izləri ilə qarşılaşar, meliorator zəhmətinin bəhrəsini aydın görərsən. **Zaqatala Rayon Suvarma Sistemləri İdarəsinin rəisi, “Tərəqqi” medallı mütəxəssis Fikrət Şərifov** 2019-cu ildə gördükləri işlərdən, qazandıqları uğurlardan söhbətinə yuxarıdakı fikirlərlə başladı. Təməli ötən əsrin əvvəllərində qoyulan müasir meliorasiya və iqtisadiyyatın əsas inkişafının ulu öndər Heydər Əliyevin respublikaya birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdən başladığını və bu müddətdə böyük quruculuq işləri aparıldığını, güclü istehsal bazası yaradıldığını qeyd edən idarə rəisi Zaqatala melioratorlarının da ötən dövrdə öz işlərində peşəkarlığını artırdıqlarını, meliorasiya və irriqasiyanın daha da yaxşılaşdırılmasına nail olduqlarını bildirdi və bunları 2019-cu ilin nəticələrini konkret misallarla təhlil etməklə diqqətə çatdırdı.

- Zaqatala respublikamızın güclü iqtisadi potensialına görə fərqlənən qabaqcıl aqrar rayonlarındandır. Son illərin nəticələri daha ürəkaçan, daha işıqlı sabaha nikbinlik yaradan uğurlardır. Rayonumuzun ərazisində torpaqların suvarma vəziyyətinin yaxşılaşdırılması və eləcə də yaşayış məntəqələrinin, əkin sahələrinin sel təhlükəsindən mühafizə edilməsi sahəsində çox işlər görülmüşdür. Qeyd edim ki, Zaqatalada 13562 hektar suvarılan torpaq sahəsi var. Həmin sahələrdə suvarma 4 sistem üzrə aparılır. Başqa sözlə, Muxax çayla 3350, Tala çayla 1407, Katex çayla 767, Qara çayla 9838 hektar sahəyə su verilir. Suvarılan torpaqların su təminatının, meliorativ vəziyyətinin yaxşılaşdırılması, su ehtiyatlarından qənaətlə və səmərəli istifadə olunması üçün 5632 kilometr uzunluğunda suvarma şəbəkəsi, onların üzərində 34 ədəd hidrotexniki qurğu var. Suvarma kanalları əsasən torpaq məcralıdır. Yalnız 18 kilometr 669 metr beton üzlüklüdür. Muxax, Katex, Tala çayları yağış və qar suları ilə qidalanır. Eyni zamanda, meşələrdən çıxan qaynama bulaqların suları da həmin çaylara axır və onların əhatə etdiyi torpaq sahələri bu vasitə ilə suvarılır. Bundan başqa, Alazan çayı boyunca yerləşən 6 kəndin - Muğanlı, Qandax, Faldar, Yengiyan, Kəpənəkçi, Mosul kəndlərinin 2101 hektar torpaq sahəsinə 2 pilləli Alazan nasos stansiyası vasitəsilə xidmət göstərilir. 1982-ci ildə istifadəyə verilib 14 il fəaliyyət göstərdikdən sonra fəaliyyəti dayandırılan həmin nasos stansiya ölkə Prezidentinin aqrar sahəyə son illər daha çox qayğısı, diqqəti və dəstəyi sayəsində yenidən istismara verilmişdir. 2019-cu ilin mart - aprel aylarından Mosul, Kəpənəkçi, Yengiyan, Qandax, Faldar, Muğanlı kəndlərinin şəbəkə altında olan torpaqlarına məhz bu nasos stansiya vasitəsilə su verilməsi təmin edilmişdir. Nasos stansiyasının bu mövsümdə fasiləsiz işi təşkil olunmuşdur.

İdarə rəisi söhbətində onu da bildirdi ki, rayonun ərazisində suvarmanın daha mütəşəkkil təşkili ilə əlaqədar 3 sudan istifadə birliyi yaradılmışdır. Onların fəaliyyətinin lazımi qaydada təşkili üçün imkan və şərait yaradılması diqqət mərkəzində saxlanılır. Qımır və Əliabad sudan istifadə birlikləri üçün hər cür təminat-təchizatlı inzibati bina, hərəsinə bir ədəd ekskavator ayrılmışdır. Sudan istifadə birliklərinin yaradılması yerlərdə əkinçiliklə məşğul olan əhalinin su sarıdan probleminin yaranmasının qarşısını, demək olar, tamamilə almış, su itkisinə, onun israfçılığına yol verilməsi halları aradan qaldırılmışdır.

Rayonumuzun ərazisində suvarmanın daha mütəşəkkil təşkili ilə əlaqədar 3 sudan istifadə birliyi yaradılmışdır.

Cari ilin əvvəlində suvarma mövsümü başlayanadək suvarılacaq əkin sahələrinin su ilə təmin edilməsi üçün veriləcək suyun miqdarı barədə idarəmizlə sudan istifadə birliyi arasında müqavilə bağlanmışdır.

Cari ildə rayonda mövcud olan suvarılan torpaq sahələrinə veriləcək suyun miqdarı 49960 kubmetr olmuşdur. 2703 hektar taxıl, 2820 hektardən qarğıdalı, 600 hektar tütün, 1835 hektar tərəvəz, 3102 hektar bağ, 1392 hektar həyətyanı sahələr suvarılmışdır.



—El arasında belə bir deyim var: Su, həm həyatdır, həm də təhlükə, - deyən Fikrət Şərifov təbiətə, əkilən bitkilərə, ağaclara suyun verilməsinin, nəticədə məhsul bolluğu yaradılması, ekologiyanın qorunub möhkəmləndirilməsi üçün ən gözəl həyat olduğunu, suyun bolluğundan çaylarda sel daşqınları yaranmasını, bunun da əkin sahələri, yaşayış məntəqələri üçün ciddi təhlükəli fəsadlar olduğunu vurğuladı. Qeyd etdi ki, ərazilərində yuxarıda adlarını çəkdikləri çaylar sel daşqınları yarada bilirlər. Ona görə də Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin müvafiq



tapşırıqları, dəstəyi, rayon rəhbərliyinin gündəlik məqsədyönlü nəzarəti və qayğısı ilə bu kimi təhlükələrin qarşısının alınması üçün vaxtında lazımi tədbirlər görürük. 2019-cu ilin müvafiq dövründə istismar tədbirlər planına uyğun olaraq rayon ərazisindən axan çaylarda əkin sahələrinin və yaşayış məntəqələrinin sel təhlükəsindən mühafizə edilməsi sahəsində xeyli mühafizə bəndləri təmir edilmişdir. Muxax çayın sağ və sol sahilində, Çobankol kəndi ərazisində 1553 kubmetr təmir işi görülmüşdür. Muxax çayın sol sahilində Suvagil kəndi ərazisində - 577 ədəd qabion bənd qurulmuşdur. Rayonun bütün çaylarında sel sularından mühafizə məqsədilə 1081 min kubmetr həcmində çay yataqlarının təmizlənməsi işi görülmüşdür. 2019-cu ildə rayon ərazisində əkin sahələrinin və yaşayış məntəqələrinin sel sularından mühafizəsi məqsədi ilə davamlı olaraq şəhər ərazisində Silban çayda 200 poqonmetr, Əliabad kəndinin əkin sahələrinin mühafizəsi məqsədi ilə 100 poqonmetr uzunluğunda daş beton bəndi, Dardoqqaz kəndinin əkin sahələrinin mühafizəsi üçün isə 80 poqonmetr daş beton bəndi tikilmişdir. Hazırda bu sahədə təmir işləri davam etdirilir.

Dövlətin aqrar sahəyə, xüsusilə meliorasiyaya diqqət və qayğısına cavab olaraq rayonda görülən meliorasiya və irriqasiya işlərinin yüksək səviyyədə yerinə yetirilməsi üçün bundan sonra da var qüvvəmizlə çalışacağıq.

**Söhbəti hazırladı:
Rasim AMANOV,
“Respublika”.**